**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№377/6** **13 iyun 2025-ci il**

**Keyfiyyətə kənar nəzarət sahəsində yol verilən nöqsanların profilaktikası və mövcud risklərin aşkar edilməsi məqsədilə təhlilin aparılması və təkliflərin verilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.13-cü "Keyfiyyətə kənar nəzarət sahəsində yol verilən nöqsanların profilaktikası və mövcud risklərin aşkar edilməsi məqsədilə təhlilin aparılması və təkliflərin verilməsi" bəndinin icrası ilə əlaqədar Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi rəisi (B.Orucov) tərəfindən 2025-ci ilin I rübü ərzində keyfiyyətə kənar nəzarət üzrə aparılmış monitorinqlərin nəticəsinə dair təqdim edilmiş hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2025-ci ilin I rübü ərzində keyfiyyətə kənar nəzarət üzrə aparılmış monitorinqlərin nəticəsinə dair hesabat nəzərə alınsın (əlavə olunur).

2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki:

2.1. Tələbləri ən çox pozulan Beynəlxalq Audit Standartlarına dair mövzuların 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramına daxil olunması təmin edilsin;

2.2. Beynəlxalq Audit Standartlarının tələblərinə tam əməl etməmiş auditorlara əməli köməkliyin göstərilməsi məqsədilə müvafiq təlimlərin keçirilməsi (plan-qrafikin, iştirakçıların və təlimçilərin, tədris olunacaq mövzuların siyahısının hazırlanmasını 01 avqust 2025-ci il tarixinədək təqdim etməklə) təmin edilsin.

3. Palata sədrinin elmi metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir ay müddətində keyfiyyətə kənar nəzarət monitorinqləri zamanı aşkar edilmiş tələbləri ən çox pozulan Beynəlxalq Audit Standartlarına dair şərhlərin (prosedurlar üzrə) hazırlanmasını təmin etsin.

4. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic
Ümumi şöbə

Əli ilə düzdür